

Ələkbər SALAHZADƏ

**VƏTƏN**

En,
Düş bir çağından, bir günündən çıx,
Dünənindən vur, sabahından,
Bugünündən vur, dünənindən çıx,
Düş bayatı sırasından,
çıx son şeirin misralarından.
Keç Füzuli yanğısından,
bir söz keçir çınqısından.
Toxum kimi en yerə,
qalx, sünbüldən
dən-dən düş.
Bu torpaqda ilk cığırın ucundan tut,
xəyalların göyündən düş.
Dağından vur,
qumundan çıx,
süzül bir çay qətrəsindən.
En bir xalı naxışından, çıx bir Bakı metrosundan!
Düş bir nağıl ölkəsinə,
Dürat, Qırat belindən çıx,
en, endikcə en varağa,
bir körpənin dilindən çıx!
Günbatanından vur, gündoğanından çıx!
Şahdağından düş, Muğanından çıx,
Ötənlərin göz yaşından vur,
dənizindən, çayından çıx,
vur Arazın bu tayından,
o tayından çıx.
Gir bu yurdun od qatına
qarış-qarış,
bir misraya qarış, qarış –
çıx!
Odunu qoş qanına,
gücünü yığ gücünə.
Şirini nə, acısı nə – vur dişinə.
qəmini qəminə qat,
sevincini sevincinə.
Tarixini sıx yaşına,
dünənindən
bugününə
nəyi varsa, yığ, canım,
yurdunun od parçasıtək,
çıx dünyanın hər yanına!..